# Tarix və Coğrafiya müəllimliyi ixtisası üzrə proqram təlim nəticələri (PTN)

Tələbələr;

**PTN 1.** Azərbaycan dilində  və xarici dildə ünsiyyət qurur, müzakirələr aparır, Azərbaycan tarixi, ədəbiyyatı, mədəniyyəti, insan haqq və hüquqlarına dair biliklərə sahib olduğunu nümayiş etdirir.

**PTN 2.** Peşəsi ilə əlaqədar İnformasiya və kommunikasiya texnologiyalarından (İKT) səmərəli şəkildə istifadə edir.

**PTN 3.** Peşə etikasına uyğun davranır və sosial həyat bacarıqlarına sahib olduğunu nümayiş etdirir.

**PTN 4.** Sağlamlıq və təhlükəsizliyi, mənəvi, psixoloji, fiziki sağlamlığın qorunması qaydalarına əməl edir.

**PTN 5.** Pedaqoji və psixoloji fəaliyyətin həyata keçirilməsi, tədrisdə düzgün təlim metodikasının və qiymətləndirmə prosedurlarının müəyyən edilməsi ilə əlaqədar xüsusi biliklərə malik olduğunu nümayiş etdirir.

**PTN 6.** Təlim və tərbiyə prosesinin və valideyn və onu əvəzedənlərlə əməkdaşlığın həyata keçirilməsinə, öyrənmə fəaliyyəti üçün münbit şəraitin yaradılmasına dair biliklərə malik olduğunu nümayiş etdirir.

**PTN 7.** Təlimi planlaşdırarkən, qiymətləndirmə vasitələri seçərkən və ya təhsil proqramına sonradan hər hansı bir düzəliş edərkən xüsusi qayğıya ehtiyacı olan təhsilalanların ehtiyaclarını nəzərə alır.

**PTN 8.** Tarixi zaman, məkan, şəxsiyyət və mədəniyyət ilə əlaqədar əhatəli təlimi yerinə yetirə biləcəyini nümayiş etdirir.
**PTN 9.** Tarixi arqumentləri aydın və inandırıcı dillə izah edə biləcəyini, tarixi dövrlər, şəxsiyyətlər və hadisələr arasında səbəb nəticə əlaqələri qura biləcəyini nümayiş etdirir.
**PTN 10.** Azərbaycanın mədəni-tarixi inkişaf mərhələlərini araşdır və Azərbaycanın müasir dövrdə dünya miqyasında rolu və yerin müəyyənləşdirir.
**PTN 11.** Müxtəlif tarixi dövrlərində və coğrafiyalarda idarə etmə sistemiləri, dövrün şərtləri daxilində etdikləri yeniliklər, sosial-iqtisadi və mədəni inkişaf proseslərini təhlil edir.
**PTN 12.** Ölkələrin qədim dövrdə, orta əsrlər, yeni və ən yeni dövrdə apardığları xarici və daxili siyasətlərini siyasi və iqtisadi yöndən təhlil edir.
**PTN 13.** Müasir dövrdə dövlətlərarası, regional və qlobal münaqişələr və onların doğurduğu fəsadlar, geosiyası proseslərin mahiyyətini izah edir.
**PTN 14.** Ümumdünya və vətən tarixinin ən gədim zamanlardan müasir dövrümüzə gədərki qaynaqların tanıdılması, onlardakı materiallarının təhlili, bəhs olunan dövrlərə air tədqiqat əsərlərin ümumiləşdirir.
**PTN 15.** Xəritə, Arxeoloji, Etnoqrafik və Numizmatik bilgiləri öyrənir, əldə etdiyi bilgilər vasitəsiylə tarixi hadisiləri dərində təhlil edir.
**PTN 16.** Yerin qatları arasındaki enerji və kütlə mübadiləsini, atmosferdə baş verən hadisələrin struktur dəyişkənliyini, rütübət dövranını, bioloji məhsuldarlığını,

təbii ərazi komplekslərini və onlardan səmərəli istifadə yollarını izah edir.
**PTN 17.** Təbii və istehsal ərazi komplekslərini, onların kompanentlərini tədqiq edən təbiət və ictimai elmlər sistemini öyrənir.
**PTN 18.** Yer kürəsində təbii ehtiyatların coğrafiyasını (torpaq, su, bioloji və s.), insanın yaşayış rifahının və bunların təbii ehtiyatların mənilsənilmə səviyyəsindən asılılığını qeyd edir.
**PTN 19.** Əhali qruplarının məskunlaşmış yerlər sistemini, onların dinamikasının müxtəlif sosial-iqtisadi və təbii şəraitdə tərkibini kompleks şəkildə təhlil edir.
**PTN 20.** Yer kürəsində canlı aləmin coğrafiyası, ətraf təbii mühütün mühafizəsi, onların qorunması və səmərəli istehsalını, tükənməyən ehtiyatlardan maksimum istifadə olunmasını, həmçinin təbiətin mühafizəsi və qorunmasına yönəldilmiş tədbirləri təbliğ edir.
**PTN 21.** Coğrafi xəritələr və digər kartoqrafik əsərlər, onların yaradılması, xəritələrin tərtib redaktəsi və istifadə edilməsi üsullarını təhlil edir.
**PTN 22.** Su ehtiyatlarından kompleks istifadə edilməsini, çay axınının nizamlanmasını, su obyektlərində antopogen təsirin bioloji ehtiyatlara vurduğu ziyanın aradan qaldırılmasını, fiziki təmas olmadan obyekt və ya hadisə ilə bağlı informasiyanın əldə olunmasını müəyyən edir.